“Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir”.

Heydər ƏLİYEV




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır    20 mart 2015-ci il    № 22 (1938)    Qiyməti 25 qəpik


# Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik

Hörmətli həmvətənlər!

Sizi əziz Novruz bayramı münasibətilə səmimi qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və uğurlar arzulayıram.

Novruz bayramı mənşəyini uzaq keçmişimizin ən dərin qatlarından alıb, Azərbaycan xalqının mənəviyyat aləminin zənginliyini günümüzədək layiqincə yaşadır. Tanrının misilsiz hikmətlə yaratdığı təbiətə sonsuz sevgi və yüksək ehtiramın parlaq təzahürü olan bu bayramda ulu babalarımızın minilliklərin sınağından çıxmış həyat fəlsəfəsi dolğun təcəssümünü tapmışdır. Odlar diyarını sivilizasiyaların qovuşuğundakı qədim mərkəz olaraq tanıdıb şöhrətləndirmiş mədəni sərvətlər xəzinəmizdə Novruz mərasimləri müstəsna mövqeyə malikdir. Ali ümumbəşəri dəyərlərin daşıyıcısı Bahar bayramının dünya irsinin şah əsərləri sırasında olması hər bir azərbaycanlıya qürur verir.



Yaz bayramı özündə qoruyub saxladığı misilsiz mənəvi qüvvət sayəsində tariximizin ən çətin və mürəkkəb dövrlərində belə gələcəyə nikbin baxmağımızı təmin etmişdir. Ötən əsrin sonlarına doğru müstəqil dövlətçilik idealımıza yenidən qovuşduqdan sonra o, rəsmi milli bayram statusunu qazanmışdır. Builki Novruz bayramını Birinci Avropa Oyunları ərəfəsində qeyd edirik. Yeniləşən, müasirləşən Azərbaycan müxtəlif ölkələrdən çoxsaylı iştirakçıları Novruz günlərində xüsusən aydın ifadəsini tapan ənənələrimizə uyğun böyük qonaqpərvərliklə qəbul etməyə hazırlaşır. Ümidvaram ki, xalqımıza xas ürək açıqlığı bu Oyunları mühüm idman və mədəniyyət bayramına çevirəcək, onun insanların yaddaşlarında unudulmaz hadisə kimi həkk olunmasına xidmət göstərəcəkdir.

Novruz bayramını ölkəmizin hüdudlarından uzaqlarda bütün soydaşlarımız azərbaycançılıq məfkurəsi işığında bizimlə birgə qarşılayırlar. Bu ümumxalq bayramı qoy hər ocağa, hər ailəyə bol sevinc, firavanlıq və ruzi-bərəkət bəxş eləsin.

Novruz bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 18 mart 2015-ci il.

## Prezident İlham Əliyev “Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında” Sərəncam imzalayıb

***Martın 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" Sərəncam imzalayıb.***

AzərTAc xəbər verir ki, Sərəncamda məhkum olunmuş bir sıra şəxslərin, onların ailə üzvlərinin, insan hüquqları üzrə müvəkkilin, insan hüquqlarının müdafiəsi təşkilatlarının Azərbaycan Respublikası Prezidentinə ünvanlanmış əfv haqqında müraciətlərinə baxıldığı, məhkumların şəxsiyyətinin, səhhətinin, ailə vəziyyətinin, cəza çəkdikləri müddətdə davranışlarının nəzərə alınaraq, humanizm prinsiplərinə əsaslandığı qeyd edilib.

Sərəncama əsasən, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 90 nəfər cəzasının çəkilməmiş hissəsindən azad edilib. Bundan başqa, 4 nəfər islah işləri cəzasının çəkilməmiş hissəsindən, 7 nəfər isə cərimə cəzasından azad olunub.

## Novruz bayramı münasibətilə Silahlı Qüvvələrin şəxsi heyətinə

## Azərbaycan Respublikası Müdafiə nazirinin təbriki

Yoldaş zabitlər, gizirlər, miçmanlar, çavuşlar, əsgərlər və matroslar!

Sizi Novruz bayramı münasibəti ilə səmimi qəlbdən təbrik edirəm.

Bu gün xalqımız uzun illərdən bəri qoruyub saxladığı adət-ənənələrinin, milli-mənəvi dəyərlərinin təntənəsi olan Novruz bayramını dövlət bayramı səviyyəsində qeyd edərək öz qədim tarixə malik keçmişinə hörmət və ehtiramını bildirir.

Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi altında aparılan daxili və xarici siyasət nəticəsində ölkə iqtisadiyyatının fasiləsiz inkişafı təmin edilmiş, dövlətçilik ənənələrimiz möhkəmlənmiş, vətəndaşlarımızın maddi rifahı yaxşılaşmışdır. Respublikamızda ordu quruculuğu, gənclərin vətənpərvər ruhda, ölkəmizə və dövlətimizə sədaqətli, cəmiyyətə yararlı vətəndaş kimi formalaşması və inkişaf etməsi, qoşunların müasir silah və texnika ilə təmin olunması, hərbi qulluqçuların sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm addımlar atılır və Azərbaycan Ordusunun döyüş qabiliyyəti gündən-günə artır.

İnanıram ki, Siz Azərbaycan Respublikasının Konstitusiyasına, Hərbi Anda və nizamnamələrə bundan sonra da sadiq qalacaq, döyüş və ictimai-siyasi hazırlıqda yeni uğurlar əldə edərək Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə üçrəngli Dövlət bayrağımızı Şuşada, Xankəndidə və işğal altında olan digər əzəli yurdumuzda dalğalandıracaqsınız.

Hər birinizə, eyni zamanda ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların ailə üzvlərinə bayram təbriklərimi çatdıraraq, Sizə möhkəm cansağlığı, uzun ömür, ailə səadəti və şərəfli xidmətinizdə yeni müvəffəqiyyətlər arzulayıram.

**General-polkovnik**
**Zakir HƏSƏNOV**
**Azərbaycan Respublikasının**
**Müdafiə naziri**

## Sudan Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini dəstəkləyir

***Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov martın 18-də Sudanın xarici işlər naziri Əli Əhməd Kartinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.***

AzərTAc xəbər verir ki, sədr Azərbaycanın və Sudanın dost ölkələr olduğunu bildirib. Sudanın Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən biri olduğunu deyən Oqtay Əsədov qeyd edib ki, ölkələrimiz arasında diplomatik münasibətlərin qurulmasının tarixi 20 ildən çox müddəti əhatə edir.

Siyasi münasibətlərin yüksək səviyyədə olduğunu deyən Milli Məclisin sədri Azərbaycanın bütün istiqamətlərdə, o cümlədən iqtisadi, humanitar, mədəni sahələrdə Sudanla əlaqələrin qurulmasında maraqlı olduğunu vurğulayıb. Oqtay Əsədov iki ölkə arasında beş sənədin imzalandığını, altı sənədin isə imzalanma mərhələsində olduğunu deyib. Sədr iqtisadiyyat sahəsində də əlaqələri inkişaf etdirmək üçün yaxşı potensialın olduğunu bildirib. Beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimizin yaxşı əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

Oqtay Əsədov Sudanın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəklədiyinə və bu ölkənin Milli Assambleyasının xarici əlaqələr komitəsinin Xocalıda azərbaycanlılara qarşı törədilmiş faciəni soyqırımı kimi tanıyan sənədi qəbul etdiyinə görə minnətdarlığını bildirib.

Nazir Əli Əhməd Karti Azərbaycana səfərinin, keçirdiyi görüşlərin ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verəcəyini deyib. O, Sudanın Dağlıq Qarabağ münaqişəsinin həllində Azərbaycanın haqlı mövqeyini hər zaman dəstəkləyəcəyini vurğulayıb.

Görüşdə parlamentlərarası əlaqələrin genişləndirilməsi və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Avropa Şurası Ermənistanı beynəlxalq hüquq normalarına əməl etməyə çağırmalıdır

***Martın 17-də Avropa Şurasının Parisdəki ofisində AŞPA monitorinq komitəsinin iclası keçirilib. Komitə üzvləri gündəliyə çıxarılan Monako, Makedoniya və Monteneqro ilə müsbət dialoq, alt komitənin "dondurulmuş münaqişələr", Gürcüstanda və Ukraynada vəziyyətlə bağlı məsələləri müzakirə edib, Azərbaycan üzrə həmməruzəçilərin ölkəmizə səfərinə dair hazırladıqları ilkin hesabat barədə fikir mübadiləsi aparıblar.***

Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri, Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov iclasla bağlı AzərTAc-a müsahibəsində deyib: Komitədə bir neçə məsələ ilə yanaşı, bu yaxınlarda Azərbaycana səfər etmiş həmməruzəçilər Pedro Aqramunt və Tadeuş İvinskinin ölkəmizlə bağlı ilkin hesabatı və Azərbaycana birbaşa aid olan "dondurulmuş münaqişələr" məsələsi geniş müzakirə olundu. Həmməruzəçilər Azərbaycanda keçirdikləri görüşlər və mövcud vəziyyət barədə məlumat verdilər. Bildirdilər ki, hazırda Azərbaycanda işlər əsas iki istiqamət üzrə aparılır - birincisi, beynəlxalq təşkilatlarla əlaqələrin yüksək səviyyədə həyata keçirilməsi, ikincisi, Bakıda təşkil ediləcək ilk Avropa Oyunları ərəfəsində böyük quruculuq işlərinin görülməsi.

Mən çıxışımda hər iki məsələyə münasibətimi bildirdim. Qeyd etdim ki, AŞPA-nın yeni təyin olunmuş məruzəçisi polşalı deputat Tadeuş İvinski ilə işləməyə hazırıq və artıq demək olar bu iş başlayıb. Azərbaycan beynəlxalq təşkilatlarla, o cümlədən Avropa Şurası ilə konstruktiv şəkildə əməkdaşlıq etməkdədir.

Həmçinin diqqətə çatdırdım ki, ilk Avropa Oyunları ərəfəsində ölkəmizdə böyük quruculuq, yenidənqurma işləri görülür. Bütün bunlar Azərbaycanın imicini və ölkəmiz haqqında həqiqətləri dünyaya çatdırmaq istiqamətində növbəti mühüm addımdır.

"Dondurulmuş münaqişələr"lə bağlı fikir mübadiləsi aparılarkən komitə üzvləri qeyd etdilər ki, bu münaqişələr çox təhlükəlidir. Ona görə də bununla bağlı növbəti yığıncaqlarda fikir mübadiləsinin davam etdirilməsi məqsədəuyğundur.

Nümayəndə heyətinin rəhbəri kimi məsələ ilə bağlı qeyd etdim ki, Avropa Şurasının üzvü olan bir ölkənin ərazisini işğal edən digər üzv ölkənin Şurada, monitorinq komitəsində mövcudluğu qanunauyğun deyil. Ona görə də Avropa Şurası, təşkilatın monitorinq və digər komitələri münaqişələrlə bağlı məsələnin, ümumiyyətlə, gündəmdən çıxarılmasını istəyirlərsə, əvvəlcə Azərbaycan torpaqlarını işğal etmiş erməni silahlı birləşmələrinin ölkəmizin ərazisini tərk etməsi istiqamətində ciddi addım atmalı, Ermənistanı beynəlxalq hüquq normalarına əməl etməyə çağırmalıdır. Bunlara əməl olunmadığı təqdirdə Ermənistana qarşı sanksiyalar tətbiq olunmalıdır.

Təbii ki, bu müzakirələr yalnız fikir mübadiləsidir. Bildiyiniz kimi, AŞPA-nın siyasi komitəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi üzrə məruzəçi təyin olunub. Bununla əlaqədar monitorinq komitəsində də fikir mübadiləsi aparmışıq, aparırıq və yenə də aparacağıq. Bir sözlə, Azərbaycan həqiqətlərini avropalı deputatlara çatdırmağa davam edəcəyik.

## Ermənilərin növbəti uğursuzluğu

***Qondarma "erməni soyqırımı"nın "100 illiyi"ni qeyd etməyə hazırlaşan ermənilər tarixi faktlardan və reallıqlardan uzaq bu iddianı dünya ictimaiyyətinə sırımaq üçün dəridən-qabıqdan çıxırlar.***

Böhtanları doğru kimi qələmə verməkdə və başqalarını ittiham etməkdə ad çıxaran ermənilərin martın 30-da UNESCO-nun mənzil qərargahında qondarma "erməni soyqırımı" ilə bağlı "Müharibə qurbanları" adlı sərgi təşkil etmək istəkləri növbəti dəfə baş tutmayıb.

Türkiyənin Fransadakı səfiri Hakkı Akıl ermənilərin bu istəklərini ürəklərində qoyub. Diplomat UNESCO-nun baş direktoru xanım İrina Bokovaya ünvanladığı məktubda ermənilərin qurumun iqamətgahında başqa ad altında qondarma "erməni soyqırımı" ilə bağlı sərgi təşkil etmələrinə qəti etirazını bildirib. O, ermənilərin 100 illiyini qeyd etməyə hazırlaşdıqları "soyqırımı"nın heç bir tarixi və qanuni əsası olmadığını, bunun Ermənistanın Türkiyəyə qarşı əsrlər boyu bəslədiyi nifrət hissinin təcəssümü olduğunu vurğulayıb.

Səfirin etirazını və əsaslı faktlarını nəzərə alan UNESCO rəhbərliyi sərginin təşkilinə icazə verməyib. Beləliklə, ermənilərin yalanları ifşa edilib və onlar növbəti dəfə uğursuzluğa düçar olublar.

**AzərTAc**

# Maddi-Texniki Təminat Baş İdarəsinin yeni inşa edilən obyektlərinin açılışı olub







***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, şəxsi heyətin təchizat, təminat və sosial-məişət şəraitinin yaxşılaşdırılması, o cümlədən əşya-əmlakla, ərzaqla, təzə tərəvəzlə və digər kənd təsərrüfatı məhsulları ilə təminatını gücləndirmək məqsədilə hərbi hissə və obyektlərdə tikinti və yenidənqurma işləri davam etdirilir.***

Martın 17-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Mərkəzi Əşya Bazası, Mərkəzi Ərzaq Anbarında yeni tikililərin və Maddi-Texniki Təminat Baş İdarəsinin 2-ci inzibati binasının açılışını həyata keçiriblər.

Müdafiə nazirinin maddi-texniki təminat üzrə müavini - Maddi-Texniki Təminat Baş İdarəsinin rəisi vəzifəsini icra edən general-mayor Qorxmaz Qarayev naziri qarşılayaraq ona məruzə edib.

Sonra Mərkəzi Əşya Bazasının inzibati və texniki ərazilərindəki tikililər və perspektiv planlar haqqında Müdafiə Nazirliyinin rəhbərliyinə qısa məlumat verilib.

Müdafiə naziri yeni tikilmiş 3000 nəfərlik hamam-camaşırxana kombinatının açılışını edərək onun fəaliyyəti ilə tanış olub, orada çalışan qulluqçularla görüşüb və tövsiyələrini çatdırıb.

2015-ci ildə şəxsi heyətin təminatı üçün nəzərdə tutulmuş əşya əmlakının etalon nümunələrinə baxış keçirən Müdafiə naziri hərbi qulluqçuların daha keyfiyyətli geyimlə təmin olunmaları üçün qısa müddətdə görüləcək işlərlə bağlı tapşırıqlarını verib.





Texniki ərazidə inşa olunmuş 36 vaqon tutumlu, 1440 kvadrat metrlik saxlancın açılışı həyata keçirildikdən və əmlakın saxlanması qaydaları ilə tanışlıqdan sonra bazanın ərazisində texnikaların yeni üsulla boyanması işinə baxılıb.

Mərkəzi Ərzaq Anbarına gələn Müdafiə nazirinə inzibati və texniki ərazilərdə mövcud olan tikililər və inkişaf planı haqqında məlumat verilib.

Sonra yeni inşa olunmuş quru ərzaq məhsullarının saxlanılması üçün 1000 tonluq, tərəvəz məhsullarının saxlanılması üçün 1000 tonluq, tez xarab olan ərzaqların, ət və balıq məhsullarının saxlanılması üçün 1000 tonluq soyuducu saxlancların və laboratoriya binasının açılışı olub.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, Silahlı Qüvvələrin şəxsi heyətinin ilboyu təzə və yüksək kalorili qida ilə təmin olunması məqsədilə yenidən yaradılan yardımçı təsərrüfatlardan toplanan kənd təsərrüfatı məhsulları birbaşa şəxsi heyətin qidalanmasına verilir. Gələcəkdə bu işə diqqət daha da artırılacaqdır.

Sonra Müdafiə Nazirliyinin rəhbərliyi Maddi-Texniki Təminat Baş İdarəsinin yeni tikilən 2-ci inzibati binasının açılışında iştirak edib. Qısa müddət ərzində avadanlıqlarla tam təchiz olunmuş binada sinif otaqları, interaktiv tir zalı, geniş idman kompleksi və kitabxana inşa edilib. Ərazidə abadlıq və yaşıllaşdırma işləri görülüb, şəxsi heyətin xidməti vəzifələrinin yerinə yetirilməsi üçün lazımi şərait yaradılıb. Binada yerləşən idarə, xidmət, şöbə və bölmələrin xidməti, texniki və təminat otaqlarındakı vəziyyətlə tanış olunub, şəxsi heyətin iş yerlərindəki şərait öyrənilib.

Sonra rəsmi tədbirlər üçün nəzərdə tutulmuş ümumi zalda Maddi-Texniki Təminat Baş İdarəsinin zabit heyəti ilə görüş keçirilib.

Müdafiə naziri hərbi hissələrin ərzaq, əşya-əmlak təminatına nəzarətin gücləndirilməsi, silah-sursatla təchizat, hərbi qulluqçuların sosial-məişət şəraitlərinin daha da yaxşılaşdırılması ilə əlaqədar müvafiq tapşırıqlar verib.

Tədbir iştirakçıları yaradılan şəraitdən məmnun qaldıqlarını, göstərilən qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.







**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# Müdafiə naziri hərbi şəhərcikdə aparılan əsaslı tikinti işlərini yoxlayıb







***Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin göstərişinə əsasən, hərbi obyektlərin kompleks şəkildə tikilərək istifadəyə verilməsi istiqamətində hərbi qarnizonlarda aparılan işlər davam etdirilir.***

Martın 18-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov yeni tikilən hərbi şəhərcikdə aparılan inşa işlərinin gedişatını yoxlayıblar.

Müdafiə naziri ərazinin perspektiv tikinti-quruculuq planına baxıb, inşa işlərini aparan heyətə müvafiq tapşırıq və tövsiyələrini verib.

Hərbi şəhərciklərdə zəruri infrastruktura yanaşı, müasir tələblərə cavab verən, bütün məişət şəraiti ilə təmin edilmiş yataqxana kompleksi də inşa edilib.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**

# "Bizi yad etdiklərinə görə ordu rəhbərliyinə minnətdarıq"

## Azərbaycan Respublikasının Müdafiə naziri Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olub

***Martın 19-da Müdafiə naziri general-polkovnik Zakir Həsənov, nazirin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov və nazirliyin rəhbər heyəti Silahlı Qüvvələrin Baş Klinik Hospitalında olublar.***



Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin hospitalın həyətində ucaldılmış abidəsi ziyarət olunub və abidənin önünə tər gül dəstələri düzülərək ulu öndərin əziz xatirəsi hörmət və ehtiramla yad edilib.

Sonra Müdafiə naziri general-polkovnik Zakir Həsənov müalicə olunan zabit və əsgərlərlə görüşüb. Müdafiə Nazirliyi Tibb Baş İdarəsinin rəisi general-mayor Natiq Əliyev hazırda hərbi səhiyyəmizdə mövcud olan müasir müalicə şəraitindən söz açaraq dövlət və ordu rəhbərliyi tərəfindən hərbi qulluqçulara göstərilən diqqət və qayğıdan danışıb.





Müdafiə naziri ayrı-ayrı bölmələrdə zabit və əsgərlərin müalicə şəraiti ilə yaxından maraqlanıb, Novruz bayramı münasibətilə xoş arzularını çatdırıb. Həmçinin tezliklə sağalaraq xidmət etdikləri hərbi hissələrə qayıtmalarını arzulayıb.

Nazirin müalicə korpuslarında görüşdüyü zabit və əsgərlərlə həmsöhbət oldum. Öyrəndim ki, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Dəyanət Zahidov son günlər Ağdərə-Tərtər istiqamətində erməni təxribat qrupunun hücumlarının qarşısını alarkən qolundan yaralanıb.

- Biz həmişə mövqelərimizdə ayıq-sayıq dayanırıq, - deyib hərbi qulluqçu. - Həmişəki kimi yenə də postda dayanmışdıq. Gecə yarıdan keçmiş ermənilərin kəşfiyyat-diversiya qrupunun yaxınlaşdığını duyduq. Düşmənin hücumunu qətiyyətlə dəf etdik. Ağır itki verən ermənilər geri çəkilməyə məcbur oldular. Onlar silahlarını da atıb qaçdılar. Əməliyyatda qazandığımız uğur bir daha göstərdi ki, biz öz mövqelərimizdə həmişə ayıq-sayıq dayanaraq, Vətənimizin keşiyini çəkirik. Bu gün də sevinc içindəyəm. Hörmətli Müdafiə nazirinin bayram ərəfəsində vaxt tapıb bizimlə görüşməsi bizi daha da ruhlandırır, qəlbimizdə xoş hisslər doğurur. Bu əziz gündə bizi yad etdiklərinə görə silahdaşlarım adından ordu rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm.

Mayor İlqar Qurbanov, kapitan Rəşad Qurbanov, gizir Anar Namazov, əsgərlərdən Nüsrət Tağıyev, Pərviz Baxşıyev, Nazim Şıxəmətov, Məhəmməd Abdullayev və başqaları da Novruz bayramında onlara baş çəkdiyinə, müalicələri ilə yaxından maraqlandığına görə Müdafiə naziri general-polkovnik Zakir Həsənova dərin minnətdarlıqlarını ifadə ediblər.

Müdafiə naziri rəhbər tibb heyətinə lazımi məsləhət və tövsiyələrini verib.

Sonra general-polkovnik Zakir Həsənov Silahlı Qüvvələrin Baş Klinik Hospitalının yeməkxanasına baş çəkib, burada yaradılmış şəraitlə yaxından tanış olub.

**"Azərbaycan Ordusu"**

# Azərbaycan ilə Əfqanıstanın hərbi sahədə ikitərəfli əlaqələri uğurla davam edir

***Martın 18-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Əfqanıstan İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri cənab Mohammad Taqi Xəlilini qəbul edib.***



Müdafiə naziri Azərbaycanla Əfqanıstan arasında münasibətlərin inkişaf etməsində iki ölkə rəhbərinin görüşlərinin mühüm rol oynadığını və hərbi sahədə də ikitərəfli əlaqələrin uğurla davam etdiyini bildirib.

Regiondakı hərbi-siyasi vəziyyətə toxunan Müdafiə naziri Ermənistanın işğalçılıq siyasətinin bu gün də davam etdiyini, bunun nəticəsində sülh prosesinin yubanmasını və danışıqların uzadılmasının bölgədəki şəraitə mənfi təsir göstərməsini diqqətə çatdırıb.

Səfir M.Xəlili öz növbəsində Azərbaycan və Əfqanıstanın hər zaman beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiklərini xüsusi qeyd edərək Əfqanıstanda sülhyaratma missiyasına Azərbaycan hərbçilərinin verdiyi töhfəyə görə minnətdarlığını bildirib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Düşmən təxribatlarının qarşısı onun xeyli itki verməsi ilə alınıb

Qoşunların təmas xəttində guya Silahlı Qüvvələrimizin bölmələri tərəfindən təxribat törədilməsi barədə Ermənistan kütləvi informasiya vasitələrinin yaydığı məlumatlar həqiqətə uyğun deyil və dezinformasiya xarakteri daşıyır.

Martın 19-da cəbhədə baş vermiş döyüş toqquşması nəticəsində müdafiənin ön xəttində yerləşən əsgər və zabitlərimiz düşmənə ağır zərbə vuraraq 20-dək hərbi qulluqçusunu məhv edib və yaralayıb.

Ermənistanın Müdafiə Nazirliyi cəbhədə ölən əsgərlərin analarının ölkənin hərbi-siyasi rəhbərliyinə qarşı qəzəbinin artmasından ehtiyat edirək uğursuz hərbi əməliyyatları və itkilərinin sayı barədə məlumatları qəsdən gizlədir, xalqın fikrini yayındırmağa çalışır.

Silahlı Qüvvələrimizin tank bölmələrinin heyətləri qarşısında çıxış edən Müdafiə naziri general-polkovnik Zakir Həsənov son vaxtlar cəbhədə vəziyyəti gərginləşdirmək məqsədilə ermənilərin törətdikləri təxribatlara cavab olaraq bildirib ki, düşmən birmənalı olaraq anlamalıdır ki, o özgə torpağına soxulub və sağ-salamat qalmasının yeganə yolu işğal olunmuş Azərbaycan ərazilərini tezliklə və birdəfəlik tərk etməsidir. Əks təqdirdə düşmənin cəbhədəki hər bir hərəkətinin qarşısı hərbi qulluqçularımız tərəfindən daha amansız alınacaq, vurulacaq zərbə isə ölümcül olacaqdır.

Müdafiə Nazirliyi bildirir ki, cəbhədəki döyüş toqquşması barədə təsdiqedici materiallar əlavə olaraq təqdim ediləcəkdir.

# Müdafiə naziri Silahlı Qüvvələrin tank bölmələrinin döyüş hazırlığını yoxlayıb







***Müdafiə naziri general-polkovnik Zakir Həsənov və Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov təlim poliqonunda tank bölmələrinin hazırlıq məşqlərini izləyiblər.***

Döyüş təlimi hazırlığı çərçivəsində tank heyətləri ərazidə yaradılmış müxtəlif maneələri manevrlə aşma tapşırıqlarını yerinə yetiriblər.

Tank heyətləri marşrut mərhələlərində maneə sahəsini, dirsəkli körpünü, mina-partlayış sahəsini, tankəleyhinə xəndəyi və eskarpı dəf etməklə bacarıqlarını nümayiş etdiriblər.

Heyətlər tanklardan atəş açaraq təlim sahəsində yaradılmış tank, tankəleyhinə pusqu və helikopter hədəflərini döyüş atışları ilə məhv ediblər.

Tank heyətlərinin hazırlığından razı qalan Müdafiə naziri təlim məşqlərinin daha da ciddi və intensiv aparılmasına dair tapşırıqlarını verib.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Xəbərlər: hadisələr, faktlar

### Ukrayna parlamenti Donbasın xüsusi statusu barədə müzakirələrə başlayır



Martın 17-də Ukrayna Ali Radası prezident Petr Poroşenko tərəfindən təklif olunan Donbasin bəzi rayonlarında xüsusi yerli özünüidarə qaydalarına dair qanun dəyişikliklərini müzakirə edəcək.

AzərTAc Rusiyanın NTV telekanalına istinadla xəbər verir ki, qanunda nəzərdə tutulan status hazırda qondarma Donetsk və Luqansk "respublikalarının" nəzarətində olan şəhər və qəsəbələrə aiddir.

Radanın deputatları təmas xəttinin haradan keçdiyini və rəsmi Kiyev tərəfindən hansı yaşayış məntəqələrinin xüsusi hüquq və statuslu rayonlar hesab olunduğunu müəyyən etməlidir.

Kiyev təmas xəttini 2014-cü il sentyabrın 19-na olan vəziyyətə görə təyin etməyi təklif edir. Bu halda siyahıya, məsələn, "normand dördlüyünün" fevral görüşünün fonunda ağır döyüşlərin getdiyi Debaltsevo şəhəri düşmür.

### İran-ABŞ danışıqlarında bir sıra məsələlərlə bağlı qarşılıqlı razılıq əldə edilib



İranın xarici işlər naziri Məhəmməd Cavad Zərif ilə ABŞ-ın dövlət katibi Con Kerri arasında Lozannada keçirilən görüş 5 saat davam edib. Tərəflər arasında İranın nüvə proqramı ilə bağlı aparılan müzakirələrdən sonra mətbuata məlumat verən M.C.Zərif deyib ki, danışıqlarda bir sıra məsələlər barədə qarşılıqlı razılıq əldə edilsə də, ziddiyyətli məqamlar da var.

Xatırladaq ki, rəsmi Tehran Vaşinqtonla danışıqların iyun ayınadək davam etdirilməsi barədə razılığa gəlib. Tərəflər iyun ayında yekun razılıq əldə edib müqavilə imzalamalıdırlar.

Danışıqlar prosesində Tehranın istəyi ondan ibarətdir ki, İrana qarşı tətbiq edilən iqtisadi sanksiya tamamilə aradan qaldırılsın. Vaşinqton isə İrandan nüvə proqramını həyata keçirməkdən imtina etməsini istəyir. İran reallaşdırdığı nüvə proqramının sülh xarakter daşıdığını bəyan edir.

### Almanların yarısı müdafiə xərclərinin artırılmasına tərəfdardır



"Alman dalğası" xəbər verir ki, Ukrayna böhranları və digər münaqişələr fonunda almanların orta hesabla hər iki nəfərindən biri müdafiə xərclərinin artırılmasına tərəfdardır. YouGo institutu tərəfindən aparılmış ictimai rəy sorğusunun martın 16-da elan edilmiş yekunlarına əsasən məlum olub ki, rəy sorğusunda iştirak edənlərin 49 faizi hökumətin müvafiq planlarını dəstəkləyir, respondentlərin 36 faizi isə bu planların əleyhinədir.

Almaniya hökuməti 2016-cı ildən etibarən hərbi büdcəni əhəmiyyətli dərəcədə artırmaq niyyətindədir. AFR müdafiə naziri Ursula fon der Lyayen bildirib ki, əlavə vəsait Bundesverin modernləşdirilməsinə sərf ediləcək, onun şəxsi heyətinin sayı isə dəyişməyəcək.

2013-cü ildə Almaniyada müdafiə xərcləri ümumi daxili məhsulun 1,3 faizinə bərabər olub. NATO normativlərinə görə həmin göstərici ÜDM-in 2 faizinə bərabər olmalıdır.

### Fransanın Koreyaya 300 helikopter satması barədə razılıq əldə edilib



Fransanın Koreya Respublikasına 300 ədəd mülki və döyüş Airbus tipli helikopterin satması barədə ümumi razılıq əldə olunub. Bu barədə Şimali Asiyadakı Airbus helikopter ofisinin vitse-prezidenti məlumat yayıb.

Məlumatda qeyd olunur ki, helikopterlər Fransa və Koreya Respublikasının Aerospase sənaye komitəsinin birgə tərəfdaşlığı ilə istehsal olunacaq.

Vitse-prezident artıq Koreya tərəfi ilə 1,5 milyard avro dəyərində müqavilənin yaxın bir həftədə imzalanacağı haqda razılıq əldə edildiyini diqqətə çatdırıb.

Helikopterlərin istehsalının 2021-2022-ci illərdə nəzərdə tutulduğu bəyan edilib.

### Mərkəzi Avropada Günəşin tutulması gözlənilir



Mərkəzi Avropa sakinləri martın 20-də gözlənilən Günəşin qismən tutulmasına hazırlaşırlar. Həmin regionun bir çox sakini bu nadir hadisəni müşahidə etmək üçün hətta istirahət günü götürüb. Söhbət 2011-2026-ci illər ərzində ən iri gün tutulmasından gedir. Ay Günəşin 74 faizini örtəcək. Bəzi insanlar martın 20-də Çexiyanın şimali-şərq rayonlarına getmək qərarına gəliblər, çünki orada gün tutulması daha uzun sürəcək. Praqada gün tutulması saat 9:37-də başlayacaq, maksimal fazaya 10:45-də çatacaq, 11:57-də isə isə başa çatacaq. Çexiya Elmlər Akademiyasının Astronomiya bölməsinin mətbuat katibi Pavel Suxan bildirib ki, çox şey həmin gün havanın vəziyyətindən asılı olacaq. Pavel Suxanın fikrincə, martın 20-də havanın necə olacağının ən dəqiq proqnozu üç gün əvvəl, yəni martın 17-də məlum olub.

### Apple payızda televiziya onlayn-xidmətini istifadəyə verməyi planlaşdırır



Amerikanın Apple korporasiyası 2015-ci ilin payızında özünün televiziya onlayn-xidmətini istifadəyə verməyi planlaşdırır. Hazırda şirkətin müvafiq servisini işə salmaq üçün Fox və ABC televiziya şəbəkələri ilə danışıqlar apardığı bildirilir.The Wall Street Journal nəşrinin məlumatına görə, təqdimatı iyun ayına planlaşdırılan servis sentyabrda istifadəyə buraxılmalıdır. Xidmət üçün abonent ödənişinin 30-40 dollar arasında olacağı gözlənilir. Hazırda geniş ekranlı televizor və plazma panelləri üçün nəzərdə tutulan Apple TV rəqəmsal multimediya qurğusu Netflix, YouTube, CNBC və Sky News, həmçinin Şərqi Asiya məhsullarını, o cümlədən anime və manqonu nümayiş etdirən Crunchyroll kanallarına giriş imkanı verir.

Qeyd edək ki, Mac kompüterlərini, iPad planşetlərini, iPhone və başqa smartfonları hazırlayıb satmaqla məşğul olan Apple korporasiyasının kapitalı 727,8 milyard dollar təşkil edir.

**Hazırladı: Ə.MƏHƏRRƏMOĞLU**

Əlağa Şıxlinski - 150

# Sərkərdəlik tariximizin yenilməz artilleriya generalı



**Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin tanınmış hərb xadimi general Əlağa Şıxlinskinin anadan olmasının 150 illik yubileyinin keçirilməsi haqqında sərəncamının icrası ilə əlaqədar olaraq Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində tədbirlər davam edir.**



Martın 17-də Azərbaycan Hərb Tarixi Muzeyində tam artilleriya generalı Əlağa Şıxlinskinin anadan olmasının 150 illiyinə həsr olunmuş tədbir keçirilib. Tədbir ulu öndərimiz Heydər Əliyevin və ərazi bütövlüyümüz uğrunda şəhid olan qəhrəmanlarımızın xatirələrinin bir dəqiqəlik sükutla yad edilməsi, Dövlət himninin səsləndirilməsi ilə başlanıb. Azərbaycan Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə yubiley tədbirini açıq elan edib. O, görkəmli şəxsiyyət general Ə.Şıxlinski adının Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazıldığını qeyd edərək bildirdi ki, onun rus-yapon müharibəsində və Port-Artur döyüşlərində göstərdiyi döyüş şücaətini, əsl sərkərdəlik məharətini görən çar generalları etiraf etmişdilər ki, "Əlağa Şıxlinski həqiqətən artilleriya allahıdır".

Natiq general Ə.Şıxlinskiyə həsr olunmuş tədbirlər planının muzeydə ilboyu davam edəcəyini də tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Muzeyin elmi işlər üzrə rəis müavini, tarix üzrə fəlsəfə doktoru Hacı Həsənov və bələdçi-tərcüməçi Türkan Novruzova "Azərbaycanlılar və çar Rusiyası ordusu", "Əlağa Şıxlinski - rus artilleriyasının allahı" adlı mövzularında çıxış ediblər. Qeyd edilib ki, Azərbaycan torpağı tarix boyu görkəmli şəxsiyyətlər, ictimai xadimlər və yenilməz sərkərdələr yetişdirib. Həmin insanlar həyatlarını Vətənin azadlığına və qüdrətlənməsinə həsr etmiş, doğma yurdu bütün dünyada tanıtmağa çalışmışlar. İstər çar Rusiyası, istərsə də Sovetlər birliyi dövründə azərbaycanlıların hərb elminə yiyələnməsini böyük qısqanclıqla qarşılayan o zamankı rejim, müsəlman xalqlarının hərbi ənənələrinin yaranmasına imkan vermirdilər. "Bütün bu qadağalara baxmayaraq, o dövrdə Rusiyada hərb sənətinin ən yüksək zirvəsinə çatmış və tam artilleriya generalı adına layiq görülmüş azərbaycanlı sərkərdələr - Səməd bəy Mehmandarov və Əlağa Şıxlinski, süvari generalı Hüseyn xan Naxçıvanski sübut etdilər ki, Azərbaycan xalqı hərb sənətinə yiyələnməyə qadir olan bir xalqdır", - deyə natiqlər bildiriblər.

Tədbirdə Müdafiə Nazirliyi Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin zabiti polkovnik Nazim Əhmədov, general Əlağa Şıxlinski haqqında sənədli filmlərin müəllifi Ziya Şıxlinski, Heydər Əliyev adına Ali Hərbi Məktəbin, Hərbi Akademiyanın, veteran təşkilatlarının və şəhər muzeylərinin nümayəndələri iştirak ediblər.

Tədbirdə həmçinin, ideya müəllifi Əzizağa Qənizadə olan və rəssam Əmirxan Nuar tərəfindən araya-ərsəyə gələn "Əlağa Şıxlinski Port-Arturda" adlı rəsm əsərinin təqdimatı keçirilib. Rəsm əsəri tədbir iştirakçılarında böyük maraq doğurub. Xüsusi çalarları ilə diqqəti cəlb edən əsər qəhrəmanlığın zirvəsini fəth edən general Əlağa Şıxlinskinin obrazını mükəmməl əks etdirir.

Tədbir general Ə.Şıxlinskiyə həsr olunmuş videoçarxın və sərginin nümayişi ilə yekunlaşıb.

**Lalə HÜSEYNOVA,**
**"Azərbaycan Ordusu"**

# Novruz bayramı münasibətilə bayram tədbirləri təşkil olunub

**Novruz bayramı münasibətilə Müdafiə naziri general-polkovnik Zakir Həsənovun təsdiq etdiyi tədbirlər planına əsasən, Müdafiə Nazirliyinə tabe olan hərbi hissələrdə və qarnizon (Bakı, Gəncə, Lənkəran və Naxçıvan) zabitlər evlərində bayram tədbirləri təşkil olunur.**





C.Naxçıvanski adına Hərbi Liseydə Novruz bayramına həsr olunmuş tədbir keçirilib. Kursantların canlandırdığı Novruz personajları keçəl və kosa bayram adəti üzrə yumurta döyüşdürərək, bayram sovqatı toplayıblar.

Bir qrup kursant və incəsənət nümayəndələri bədii hissədə musiqi nömrələri ilə lisey kollektivi və qonaqlar qarşısında çıxış edərək tədbirə rəng qatıblar.

* * *

"N" hərbi hissəsində də Novruz bayramı ilə əlaqədar tədbir keçirilib. Tədbirdə iştirak edən hərbi hissənin zabiti polkovnik Elşad Əbilov, Gəncə şəhər İcra Hakimiyyəti başçısının birinci müavini Mikayıl Zeynalov, Respublika Hərbi Prokurorluğunun nümayəndəsi, ədliyyə polkovnik-leytenantı Mehdi Hüseynzadə və Gəncə hərbi prokuroru ədliyyə polkovniki Əmrah Mehdiyev şəxsi heyət qarşısında çıxış edərək bayram münasibəti ilə onları təbrik edib və şərəfli xidmətlərində uğurlar arzulayıblar.

Sonra qonaqlar tərəfindən şəxsi heyətə gətirilən qiymətli hədiyyələr, sovqatlar - yaşıl səmənilər, şirniyyatlar, əlvan bayram xonçaları onların hər birinə yüksək əhval-ruhiyyə bəxş edib.

Sonda Gəncə şəhər incəsənət ustaları şəxsi heyət qarşısında geniş konsert proqramı ilə çıxış ediblər.

**Müdafiə Nazirliyi**
**Mətbuat Xidməti**



# Bayramın mübarək, Azərbaycan əsgəri!

## Naxçıvanda ordu ilə xalqın birliyini ifadə edən bayram tədbiri keçirilib



**Azərbaycan xalqı qədim zamanlardan yaz fəslinin gəlməsini təbiətin canlanması ilə bağlamış, bu münasibətlə şənliklər keçirmiş, həmin günü bayram təntənəsi ilə qeyd etmişdir. Bəzi qədim inanclara görə kainatın 4 ünsürdən - su, od, hava və torpaqdan yarandığı güman edilir. Məhz buna görə də Novruza qədər həmin 4 ünsürü özündə ehtiva edən çərşənbələr qeyd olunur. Həmin çərşənbələrdən torpaq və ya ilaxır çərşənbəsi daha geniş şəkildə bayram kimi keçirilir.**

Göründüyü kimi, Novruzda icra olunan adət və inamlar daha çox təbiət ünsürləri ilə əlaqələndirilir. Tədqiqatçılar milli dəyərlərimizdən olan Novruz bayramının min illər bundan əvvəl yarandığını qeyd edirlər. Qədim tarixə malik olan, özündə qərinələri qoruyub saxlayan Naxçıvanda da bu bayram qədim dövrlərdən keçirilir və muxtar respublikamızın hər bir bölgəsində Novruz şənlikləri əsl toy-bayrama çevrilir.

İlk olaraq tonqallar qalanır və ətrafında yallı gedilir, müxtəlif nəğmələr oxunur. Tonqaldan tullanmaq isə geridə qalan ilin ağırlığını atmaq deməkdir. Elə buna görə də belə deyilir: "Ağırlığım, uğurluğum odda yansın".



Tonqaldan sonra bütün ailə üzvləri süfrə başında əyləşir, süfrədəki ləziz nemətlərdən dadır, xoş söhbətlər edir, bayram sevincini bölüşürlər. Bu bayramda ailənin hər bir üzvünün evdə olması vacib şərtdir. Amma Vətən qarşısındakı borclarını bayram günündə xidmətdə və səngərlərdə yerinə yetirən hərbi qulluqçularımız, əsgərlərimiz var. Elə bütün bunları nəzərə alaraq Əlahiddə Ümumqoşun Ordusunun birləşmə, hissə və bölmələrində Novruz şənlikləri, konsert proqramları təşkil edilir, şəxsi heyətə təbriklər çatdırılır.

Bu günlərdə bayram şənliyini əsgərlərimizlə birlikdə qeyd etmək üçün ön xətdəki bölmələrimizdən birinə səfər etdik. Bizimlə bərabər tanınmış ziyalılar, kütləvi informasiya vasitələrinin nümayəndələri, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Şəhər Mədəniyyət və Turizm Şöbəsinin "Şəlalə" İnstrumental Ansamblının, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının, "Nuh yurdu" təşviqat briqadasının yaradıcı kollektivləri də əsgərlərimizin yanına yollandılar.

Biz bölməyə çatanda şəxsi heyətin bayram əhval-ruhiyyəsində olduğunun şahidi olduq. Özləritək vüqarlı dağlarda xidmət aparan hərbi qulluqçularımız bizi böyük səmimiyyətlə qarşıladılar.

Tədbirdə Əlahiddə Ümumqoşun Ordusunun Mənəvi-Psixoloji Təminat Şöbəsinin rəisi zabit Mirqiyas Rüstəmov çıxış edərək bildirdi ki, ordu komandanlığı tərəfindən mütəmadi olaraq şəxsi heyətlə ictimaiyyət nümayəndələrinin görüşü təşkil edilir, mədəni-kütləvi tədbirlər keçirilir. Belə tədbirlər əsgərlərin mənəvi-psixoloji durumuna öz müsbət təsirini göstərir. Biz də əldə silah Vətənin müdafiəsində ayıq-sayıq dayanan şəxsi heyəti Novruz bayramı münasibəti ilə təbrik edir, gələcək xidmətlərində uğurlar arzulayırıq.

Çıxış edən ictimaiyyət nümayəndələri, tanınmış ziyalılar, hərbi qulluqçular da şəxsi heyəti bayram münasibəti ilə təbrik edərək çətin və şərəfli xidmətlərində uğurlar arzuladılar.

Tədbirdə Naxçıvan Dövlət Filarmoniyasının, "Şəlalə" İnstrumental Ansamblının, Naxçıvan Dövlət Musiqili Dram Teatrının və "Nuh yurdu" təşviqat briqadasının yaradıcı kollektivlərinin maraqlı proqramları əsgərlər tərəfindən alqışlarla qarşılandı.

Həmin gün də ictimaiyyət nümayəndələri ilə birlikdə, əl-ələ verərək tonqal ətrafında yallı gedən əsgərlərimiz "Bir nəfər hamı, hamı bir nəfər üçün" deyərək ən xoş istək və arzularını ifadə etdilər. Həmçinin, Azərbaycan torpaqlarının düşmən işğalından azad edilməsi üçün hər an mübarizəyə hazır olduqlarını bildirdilər.

**Nəriman NƏCƏFOV,**
**Naxçıvan**

# Unutmayaq!

*1988-1994-cü illərdə Azərbaycanın bu torpaqları ermənilər tərəfindən işğal edilmişdir:*

***Dağlıq Qarabağ (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə), işğal tarixi - 1988-1994-cü illər. Sahəsi: 4400 kv.km.***
***Şərur rayonunun Kərki və Cünnüt kəndləri (17 fevral 1990) - 19 kv.km.***
***Qazax rayonunun Yuxarı Əskipara, Aşağı Əskipara, Sofulu, Bağanıs-Ayrım, Qızıl Hacılı, Barxudarlı və Xeyrimli kəndləri (1990-1992) - 75 kv.km.***
***Laçın (18 may 1992-ci il) - 1835 kv.km.***
***Kəlbəcər (3-4 aprel 1993-cü il) - 1936 kv.km.***
***Ağdam (23 iyul 1993-cü il) - 1094 kv.km.***
***Cəbrayıl (18 avqust 1993-cü il) - 1059 kv.km.***
***Füzuli (23 avqust 1993-cü il) - 1386 kv.km.***
***Qubadlı (31 avqust 1993-cü il) - 802 kv.km.***
***Zəngilan (30 oktyabr 1993-cü il) - 707 kv.km.***

**Bu torpaqları azad etmək bizim müqəddəs borcumuzdur!**

# İdman

## Çingiz Hüseynzadə: Avropa Oyunları ilə bağlı hazırlıq işlərinin son mərhələsindəyik



Azərbaycan ilk Avropa Oyunları ilə bağlı hazırlıq işlərinin son mərhələsini icra edir. AzərTAc xəbər verir ki, bunu Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə jurnalistlərə açıqlamasında deyib.

Vitse-prezident bildirib ki, artıq Avropa Oyunlarına hazırlıq başa çatmaqdadır və idman qurğularının bir çoxu istifadəyə verilib. Test yarışları keçirilir. Aprel ayında da boks və güləş üzrə test yarışları keçiriləcək. Üzgüçülük hovuzu tam hazırdır, aprel-may aylarında sınaqdan keçirilməsi nəzərdə tutulub. Olimpiya kəndi də tam hazır vəziyyətdədir. Bundan sonra əsas işimiz bu oyunlara Azərbaycan tamaşaçılarının cəlb edilməsidir.

## Azərbaycan triatlonçusu Afrika Açıq Kubokunun qızıl medalını qazanıb



Azərbaycanın triatlon üzrə yığma komandası bu il beynəlxalq yarışlarda ilk medalını qazanıb. Azərbaycan Triatlon Federasiyasından AzərTAc-a bildiriblər ki, qızıl medalın sahibi Rostislav Pevtsovdur. O, Misirin Hurgada şəhərində keçirilən Açıq Afrika Kubokunda birinci yerə layiq görülüb. Həmçinin, R.Pevtsov Olimpiya Oyunlarına vəsiqə əldə etmək üçün öz aktivinə reytinq balları da yazıb.

Qeyd edək ki, bu, R.Pevtsovun ilk uğuru deyil. İdmançı ötən il Meksikada Panamerika Kubokunun gümüş medalına, eləcə də Asiya Kubokunda və Dünya Kubokunda 2-ci yerə layiq görülüb.

## "Baku Fires" "Caciques Venezuela" komandasına böyük hesabla qalib gəlib



Quba Olimpiya İdman Kompleksində Azərbaycanın "Baku Fires" kollektivi ilə Venesuelanın "Caciques Venezuela" komandası arasında keçirilən görüş komandamızın böyük hesablı qələbəsi ilə başa çatıb.

AzərTAc xəbər verir ki, Dünya Boks Seriyası (WSB) Liqasının 9-cu turu çərçivəsində Cavid Dadaşov (49 kq) Martinez Kordovaya ("Caciques Venezuela") texniki nakautla qələbə qazanıb. Məhəmməd Qurbanov (56 kq) Villaviçenzio Rodrigesə, Heybətulla Hacəliyev (64 kq) Arkon Diasa, Jaba Xositaşvili (75 kq) Barrera Korbaja qalib gəlməyi bacarıb. Əbdülqədir Abdullayev (91 kq) də Villi Kyakoneyə nakautla qalib gəlib. Beləliklə, görüş komandamızın 5-0 hesablı qələbəsi ilə başa çatıb.

## Taekvondoçularımız "Dutch Open" beynəlxalq turnirində medallar qazanıblar



Hollandiyanın Eyndhoven şəhərində keçirilən taekvondo üzrə "Dutch Open" beynəlxalq turniri başa çatıb. AzərTAc xəbər verir ki, yarışda ölkəmizi böyüklərdən ibarət taekvondo üzrə Azərbaycan yığma komandamızın iki üzvü medal qazanıb.

Qadın taekvondoçulardan Patimat Abakarova (49 kq) final döyüşündə serbiyalı Tijana Boqdanoviçə məğlub olaraq gümüş medala layiq görülüb.

Kişi taekvondoçuların yarışında isə sonuncu Avropa çempionatının qalibi Radik İsayev (87 kq) yarımfinalda Koreya Respublikası təmsilçisi Cha Dong Minə məğlub olaraq turniri bürünc medalla başa vurub.

## Gimnastlarımız Latviyadan və İspaniyadan iki bürünc medalla dönüblər



Latviyada və İspaniyada bədii gimnastika üzrə beynəlxalq turnirlər başa çatıb.

Azərbaycan Gimnastika Federasiyasından AzərTAc-a bildiriblər ki, hər il Riqada keçirilən "Baltic Hoop" yarışı Gülsüm Şəfizadənin çoxnövçülükdə əldə etdiyi bürünc medalla yadda qalıb. Birinciliyi Belarusdan olan gimnast Melitina Stanuta, gümüş medalı isə rusiyalı gimnast İrina Annenkova qazanıb. Digər gimnastımız Zeynep Çelep çoxnövçülük və halqa ilə yarışda 8-ci yerdə qərarlaşıb. Yeniyetmələrdən ibarət qrup komandası 5 topla çıxışlarına görə 4-cü olub.

Barselonada keçirilən beynəlxalq turnirdə iştirak edən Marina Durunda isə gürzlərlə çıxışda üçüncü yerdə qərarlaşıb.

**Hazırladı:**
**Ə.MƏHƏRRƏMOĞLU**

Məsul katib
polkovnik-leytenant
İlham BEHBUDOV

Telefonlar
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98
Məktublar şöbəsi: (012) 510-64-28;

Ünvanımız
Bakı şəhəri, Akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

Növbətçi
leytenant
Ceyhun CƏFƏRLİ

Qəzetin hesabı
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə nəşr olunur. "Azərbaycan Ordusu" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Hərbi nəşriyyatın mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.

Lisenziya № 361
Sifariş № 319
Nüsxə 4600